*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2* *ISSN 2663-4368*
*Səhifə: 110-115* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.2.110*

# XX əsrin əvvəllərində azərbaycanlıların soyqırımının poeziyada bədii əksi

**Samirə Kərimova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: Akademiya-elm@rambler.ru

**Annotasiya**. Məqalədə XX əsrin əvvəllərində azərbaycanlıların soyqırımının poeziyada əksi araşdırılaraq diqqətə çatdırılır. Həmçinin milli ədəbiyyatın formalaşması və soyqırımı mövzusunun poeziyada təbliği ön plana çəkilir. Dövrün soyqırımı hadisələri mövzusunda poetik nümunələr yazan ədiblərimiz haqqında məlumat verilir. Nəinki həmin dövrdə, sonralar da bu mövzuda araşdırmalar aparan ziyalılarımız haqqında ümumi məlumat verilir.

Məqalədə, həmçinin XX əsrin əvvəllərində poeziyanın yüksəlişi, onun təmsilçilərinin ədəbi məktəb yaratması diqqətə çatdırılır. Azərbaycan Xalq Cümhuriyyətinin qısa bir zaman kəsiyində mövcud olduğu illərdə həmin dövr poeziyasının ideoloji mahiyyəti ilə yanaşı, həm də ictimai-bədii fikirdə gələcəyə nikbin inam, fəallıq aparıcıdır.

Ümumilikdə, "soyqırımı" mövzusunun ədəbiyyatımızın bütün dövrlərində aparıcı istiqamətlərdən biri olması qeyd edilir.

**Açar sözlər:** soyqırımı, poeziya, bədii ədəbiyyat, faciə, tarix

**Məqalə tarixçəsi:** göndərilib – 14.10.2024; qəbul edilib – 25.10.2024

# Artistic reflection of genocide of Azerbaijanis in poetry in the early 20th century

**Samira Kerimova**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: Akademiya-elm@rambler.ru

**Abstract.** In the article is studied the artistic reflection of genocide of Azerbaijanis in poetry in the early 20th century. The formation of national literature and the promotion of the theme of genocide in poetry is considered. The information about writers who wrote poetic examples about the genocides of the period is provided. Detailed information is given about our intellectuals who conducted research on this subject, not only in that period but also in the following period.

In this article is dealt with the development of poetry and establishment of a literary school by its representatives in the early 20th century. During the years of existence of the Azerbaijan Democratic Republic, the optimistic belief in the future and activity was a leading in ideological essence of the poetry of that period and social and artistic idea.

In general, it is stated that the subject of "genocide" has always been one of the prominent aspects of our literature.

**Keywords:** genocide, poetry, fiction, tragedy, history

**Article history:** received – 14.10.2024; accepted − 25.10.2024

## Giriş / *Introduction*

Klassik irsi özündə əks etdirən milli ədəbiyyatın formalaşmasında poeziyanın da özünəməxsus rolu vardır. XX əsrin əvvəllərində Azərbaycan poeziyası özünəməxsus inkişaf və təkamül yolu keçərək əsl vətəndaş ədəbiyyatının formalaşmasında yeni töhfələr vermiş, Azərbaycan poeziyasında soyqırımı mövzusu geniş şəkildə təbliğ edilməyə başlanılmışdır.

Həmin dövrdə ədəbi-ictimai fikir hər bir hadisə və fəlakətə milli istiqlaliyyətin möhkəmləndirilməsinə aparan növbəti addım kimi baxırdı. Cümhuriyyətin qısa bir zaman kəsiyində mövcud olması bəhs olunan dövrdə poeziyanın yüksəlişinə, onun təmsilçilərinin ədəbi məktəb formalaşdırmasına geniş imkan yaratmamışdı. Lakin Cümhuriyyət poeziyasının məzmun və mahiyyətcə yenilikçi, novator düşüncəyə malik olması onun milli ədəbiyyat tarixində mövqeyini şərtləndirmişdir. Bu dövrdə milli ədəbiyyatın aydın siyasi düşüncəyə sahiblənməsi şeirdə yeni bir istiqamətin – istiqlal poeziyasının formalaşmasına təkan vermişdir. Cümhuriyyət dövrü poeziyası klassik ənənəyə söykənməklə yanaşı, çağdaş dünya ilə əlaqə və qarşılıqlı münasibətlərə diqqətin artırılması ilə də fəallıq nümayiş etdirirdi. Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu illərdə dövrün ictimai-bədii fikrində gələcəyə nikbin inam, fəallıq və əzmkarlıq ruhunun təbliği aparıcıdır.

## Əsas hissə / *Main Part*

XX əsrin əvvəllərində xüsusilə də Azərbaycan Xalq Cümhuriyyəti dövründə azərbaycanlıların soyqırımının poeziyada əksi, ifadə olunma tərzi ilə Cümhuriyyətin süqutu, sovet dövrünün başlanması və mühacirət ədəbiyyatında əksi, təbliği arasında ciddi müqayisə vardı. Sovet dövründə azərbaycanlıların soyqırımı mövzusu nəinki ədəbiyyatda, poeziyada da olduğu kimi oxuculara çatdırılmırdı. Sovet rejiminin sərt qanunları xalqın milli-tarixi yaddaşının qismən, bəzən isə əsaslı şəkildə dəyişdirilməsinə, təbliğatın yanlış istiqamətdə aparılmasına xidmət edirdi. Ədəbiyyatın, mədəniyyətin vahid yaradıcılıq metoduna tabe etdirilməsi cəhdi azadfikirliliyin qarşısını büsbütün aldığından söz, poeziya, özünüifadə ağır sınaqlarla üz-üzə qalırdı. Bu isə sözün geniş mənasında reallıqdan uzaq, qismən saxta poeziyanın formalaşmasına şərait yaradırdı.

XX əsrin əvvəllərində (1900-1937) erməni-daşnak cəlladlarının Azərbaycan türklərinə qarşı törətdikləri soyqırımı nümunələrinə həmin dövrdə Məhəmməd Hadi, Abdulla Şaiq kimi milli azadlıq duyğularının alovlandırılması istiqamətində ciddi poetik örnəklər meydana gətirən şairlərlə yanaşı, soyqırımı məsələsini öz poeziyalarında əks etdirən dövrünün tanınmış qələm sahiblərini – Mirzə Ələkbər Sabir, Əliabbas Müznib, Hacı Səlim Səyyah, Mirzə Əli Möcüz, Abbas Səhhət, Əli Nəzmi, Əliqulu Qəmküsar, Hüseyn Cavid, Cəfər Cabbarlı, Əhməd Cavad, Səid Səlmasi, Səməd Mənsur, Bayraməli Abbaszadə, Əmin Abid (Gültəkin), şairə Ümgülsüm Sadıqzadə, Səməd Vurğun, Mikayıl Müşfiq, Süleyman Rüstəm, Mikayıl Rəfili, Abdulla Faruq, Mirvarid Dilbazi, Əlağa Vahid, Məmməd Rahim, Qafqaz İslam ordusu ilə Azərbaycana gələn türkiyəli şairlərdən Arif Urfan Qarosman və başqalarını göstərmək olar. Yuxarıda adıçəkilən şairlərimizin əksəriyyətinin poetik yaradıcılığında XX əsrin əvvəllərində azərbaycanlıların soyqırımı mövzusuna rast gəlmək mümkündür.

Hələ 1905-ci il iyulun 5-də ermənilərin müsəlmanlara qarşı törətdikləri soyqırımının İrəvan, Zəngəzur, Qarabağ və digər bölgələrdə davam etdiyi günlərdə **Mirzə Ələkbər Sabir** "Müsəlman və erməni vətəndaşlarımıza" başlıqlı şeirində erməni-müsəlman qırğınları əsnasında hər iki tərəfə xitabən yazırdı:

*Əsrimiz xahiş edərkən ittifaqü ittihad.*
*Cümləmiz əmniyyət içrə almaq istərkən murad,*
*Beynimizdə yox ikən bir gunə əsbabi-təzad.*
*Bu vətən övladinə ariz olub büğzü inad,*
*Müslimanla ermənilər beyninə düşdü fəsad.*
*Yoxmu bir sahibhidayət, yoxmu bir əhli-rəşad?!*

*Ey süxəndanan, bu günlər bir hidayət vəqtidir!*
*Ülfətü ünsiyyətə dair xitabət vəqtidir!* [5, s.50]

Xalqları ülfət və ünsiyyətə çağıran Sabir iblis fitnələrinin törəmə və ayaq tutub yeriməsinin sosial-mənəvi səbəblərini araşdırmağa, dərk etməyə çalışaraq sözünə belə davam edir:

*İki yoldaş, iki qonşu bir vətəndə həmdiyar,*
*Əsrlərcə ömr edib sülh içrə bulmuşkən qərar,*
*Fitneyi-iblisi-mərun oldu nagəh aşikar...*
*Gör cəhalətdən nə şəklə düşdü vəzi-ruzigar!*
*Qətlü-qarət bişümarü şəhrü-qəryə tarimar...*
*Ələman, bu fitnəyə çarə qıl, ey pərvərdigar!*
[5, s.50]

Sözügedən şeirdə şair diqqəti azərbaycanlılarla ermənilərin əsrlər boyunca vətənimizdə eyni torpaqda sülh şəraitində yaşamaqlarına yönəldərək, onların aralarına düşən milli ədavəti lənətə gəlmiş iblisin qəflətən aşkara çıxması ilə əlaqələndirir. Ancaq bu aşkara çıxan iblisin kimdən və nədən ibarət olması hələ tam aydın deyil. Bu qırğınların, bu qətllərin səbəbkarı kimi Rusiyanın Qafqaz siyasətini hədəfə alırdı.

Sabir iki xalq arasında baş verən qətl, qarət, obaların, yurdların xarabazara çevrilməsinin səbəbini bu xalqların cahilliyi ilə əlaqələndirir və onun çarəsinə ulu tanrıdan kömək diləyirdi.

*Fitnələr kim, faş olur, bilməm nə halətdən törər.*
*Əql bavər eyləməz kim, adəmiyyətdən törər,*
*Muslimiyyətdən və yaxud, erməniyyətdən törər,*
*Şübhə yoxdur, cəhldən, yainki qəflətdən törər,*
*Bu müsibətlər bütün bügzü ədavətdən törər,*
*Bu ədavət mütləqa hali-zəlalətdən törər;*
[5, s.50]

Şeirdən də göründüyü kimi, Sabir həmin fitnələrin insanlıqla bir araya gəlməsini, onun insanlıqdan törəyə bilməsini ağlasığmaz hesab edərək, "əql bavər eyləməz kim, adəmiyyətdən törər", – deyir. O, milli qırğın davasının, millətçilik hisslərinin müsəlmanlıqdamı, yəni azərbaycanlılardamı, yoxsa ermənilərdəmi güclü olduğu barədə hələ qəti fikir söyləyə bilmir. Bütün şeir boyu həmçinin Sabirin barışdırıcı mövqedən irəli gələn neytrallığını da nəzərdən qaçırmaq olmaz. Şair kütlələrin cahilliyini, yəni savadsızlıq ucbatından qəflətdə qalmalarını, azərbaycanlılarla ermənilərin arasına səpilən kin və ədavət toxumunu, habelə onların sosial vəziyyətlərinin son dərəcə aşağı olmasını, hər iki xalqın "hali-zəlalət" içində yaşamasını bu qırğına və "lənətə gəlmiş iblisin" fitnə-fəsadının ayaq açıb yeriməsinə rəvac verən əsas amillər hesab edir. Ona görə də, şair sözügedən şeir vasitəsilə sözqananları, vətəndaş ziyalıları əsl həqiqəti açıb xalqa bildirərək bütün bu zəlaləti dəf etməyə, xalqlar arasında sülhü və dinc, yanaşı yaşamağı bərpa etməyə çağırır.

Sabirin sözügedən şeiri sonralar ədəbiyyat tariximizdə "Beynəlmiləl" adı ilə tanındı.

Tanınmış ədəbiyyatşünas alim, Azər Turan "Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və... Fikrət Sadıq" adlı məqaləsində qeyd edir ki, "Sabir "**Müsəlman və erməni vətəndaşlarımıza**" şeirini Əli bəy Hüseynzadənin "Pəncələşmək müqtəza bu narəva halət ilə" misrası ilə başlayan **"Sülhə dəvət"** şeirindən ilhamlanaraq yazmış, hətta Əli bəy Hüseynzadə Sabirin bu məşhur şeirini redaktə də etmişdi" [9].

Ümumiyyətlə Sabir yaradıcılığında vətənə, xalqa təəssübkeşlik özünəməxsus yer tutur.

XX əsr Azərbaycan şeirində romantizm cərəyanının ən qüdrətli nümayəndələrindən biri Məhəmməd Hadidir. Keşməkeşli və faciəvi sonluqla bitən bir ömür sürmüş Hadi türk, Şərq və Avropa ədəbiyyatlarını, fəlsəfəsini dərindən mənimsəmiş və bütün bu təsirləri şeirlərində yaradıcı şəkildə əks etdirərək, orijinal şair kimi ədəbiyyat tariximizdə özünə layiqli yer tutmuşdur.

Məhəmməd Hadi "Azərbaycan" qəzetinin 31 mart 1919-cu il tarixli 147-ci nömrəsində çap etdirdiyi **"Şühədayi-hürriyyətimizin ərvahinə ithaf"** şeirində qanlı Mart hadisələrinə münasibətini belə bildirir:

*Sizin məzarınız iştə qülubi-millətdir,*
*Bu sözlərim ürəyimdən qopan həqiqətdir,*
*Sizi unutmayacaq şanlı millətim əsla,*
*Əmin olun buna, ey zinəti-cəhani-fəna*
*Sizinlə buldu bu millət şərəfli istiqbal.*
*Sizinlə buldu bu millət həyati-puriqbal.* [3]

Azərbaycanın istiqlalı uğrunda canından keçənlərin ruhuna ithaf olunmuş səkkiz beytlik şeirin birinci bəndində M.Hadi qeyd edir ki,

sizin məzarınız qara torpaq deyil, millətin qəlbidir. Sizin sayənizdə istiqbalını qazanan millət heç vaxt sizi unutmayacaq. Siz cismən yoxluğa, ruhən əbədiyyətə qoşulmusunuz.

Yuxarıda qeyd edilən misralarda biz şairin öz və xalqın adından həmin dövrün soyqırımında şəhid olanların xatirələrini əziz tutaraq onları unutmayacaqlarının, millətin onlarla şərəf hissi keçirdiklərinin, qürur duyduqlarının şahidi oluruq. Məhəmməd Hadi öz hisslərini belə duyğulu çatdırması şairin vətənpərvər hisslərinin nə qədər yüksək olduğunu, misralar vasitəsilə xalqının, vətəninin layiqli təmsilçisi olduğunu diqqətə çatdırır. Biz şeir vasitəsilə şairin sanki şəhidlərin ruhuna xitabən çıxışını hiss edirik. Sanki onlarla canlı danışır və hisslərini onlara hörmətlə çatdırır.

*Bu gün də etmədə əhli-vətən sizi dəryad,*
*Salamlayır sizi iştə bu milləti-azad.*
*Müəbbədən diridir namınız bu dünyada,*
*Sizin də ruhunuz üçsun behişti-əlada.*
*Bizi xilas edərək pəncəyi-əsarətdən,*
*Nicatbəxş olarıq dəsti-əhli-vəhşətdən.*
*Çəkildiniz əbədi xüldizari-Rəhmanə,*
*Behişti-rəhmətə, yəni diyari-rəxşanə.*
*O, xununuzla açıldı bahari-hürriyyət,*
*Sizin də yurdunuz olsun behişti-ülviyyət!* [3]

Bu şeirdə şair vətənin azadlığı, xalq, millət yolunda canından keçən hər bir vətəndaşının ruhuna rəhmət və məkanlarının cənnət olmasını diləyir. Şəhidlərimizin qanı, canı bahasına millətimizin azadlığa çıxdığını, düşmənlərin əsarətindən canlarını qurtardığını diqqətə çatdırır. Məhəmməd Hadi şəhidlərimizin ruhunun əbədiyyən cənnətə çəkildiyini və yerlərinin behişt olduğunu vurğulayır.

Tanınmış ədibimiz Cəfər Cabbarlı da, Mart soyqırımına həsr etdiyi ***"Dur, ey xar olan millət!"*** şeirində faciə qurbanlarını anaraq belə deyirdi:

*Gülzari-vətən soldu,*
*Millət xari-zar oldu,*
*Hamı payimal oldu,*
*Dur, ey xar olan millət!* [1]

Dərvişlər, əsasən gənclər bu şeiri şəhidlərin yeddi və qırx mərasimlərində, məscid və küçələrdə günahsız qurbanlar üçün göz yaşı tökərək oxuyublar. Cəfər Cabbarlı sözügedən şeir vasitəsilə millətimizin zəif tərəflərini diqqətə çatdıraraq, onları sanki oyanmağa sövq edir, xalqı maskalı düşmənə qarşı səfərbərliyə çağırırdı.

*Bir yandan ədu cəllad,*
*Bir yan naləvü fəryad,*
*Ol bu zülümdən azad,*
*Dur, ey xar olan millət!*

*Əl çək bu həqarətdən,*
*Qurtar bu əsarətdən,*
*Xar ol bu xəcalətdən,*
*Dur, ey xar olan millət!* [1]

Şeir vasitəsilə biz baş verən hadisələrin kökündə əslində cəhalətin dayandığının şahidi oluruq. O, xalqı, milləti cəhalətdən, əsarətdən, xəcalətdən oyanmağa doğru çağırırdı. Şairin bu şeirində emosiya xüsusilə hiss olunur. Bu da təbii ki, Cəfər Cabbarlının vətənə, xalqa, millətə sevgisindən doğur, vətənpərvərlik hissinin yüksək olmasından xəbər verir. Şeir bütün xalqı əhatə edən kədər, qəm, qüssə, həm də qəzəb, düşmənə nifrət hissinin ifadəsini tapdığı ictimai məzmunlu mərsiyədir.

XX əsr ədəbiyyatımızın görkəmli nümayəndəsi Əlabbas Müznibin "Fəryad" adlı şeirində də erməni daşnakları ilə bolşeviklərin birləşərək azərbaycanlılara qarşı törətdikləri əməllər çox təsirli ifadələrlə əks olunmuşdur:

*Vətən bərbad olub getmiş cəfavü cöhr ilə badə.*
*Qalıb heyrətdə aləmlər bu ahə, böylə fəryadə.*
*Vətən süngülər üstündə, əsir olmuşdur övladı,*
*Vurulmuş azərilər boynuna atəşli qəlladə.*
*Vətəndə daşnaq ilə bolşeviklər əlbir olmuşlar,*
*Qınrlar ölkənin aşiqlərin dəryadə, səhradə.* [4]

Şair bədii sözün imkanlarından o qədər məharətlə istifadə edərək xatirələrdə, o dövrün tarixi sənədlərində təsvir olunan dəhşətli mənzərələri oxucunun xəyalında canlandıra bilmişdir. Əsərin sonunda müəllif bu qəhrəman, igid xalqın bir gün yenə də öz müstəqilliyinə qovuşacağına dərin inam hissini ifadə etmişdir. Həyatda olmasa da, ruhunun bu şad xəbəri səbirsizliklə gözləyəcəyini yazmışdır:

*Ümidi verməyin əldən, dözün, ey gözlərim nuri,*
*Keçirsəz də bəlalı günləri tufanda, qovğadə.*
*Vətən həsrətilə göz yumub getsəm, salın yadə,*
*Olarsa torpağım burda və yainki Sibiryadə!* [4]

Biz sözügedən şeir vasitəsilə daşnak və bolşeviklərin əlbir olaraq vətəni bərbad hala saldıqlarını və onun övladlarının əsir düşdüklərini, onlara vurulmuş zərbələrin fəryadını hiss edirik. Və bütün bunlara baxmayaraq şairdə bu zülmün yerdə qalmayacağına ümid hisslərinin yüksək olduğunun şahidi oluruq.

Mart hadisələri ərəfəsində Bakıda faciənin iştirakçısına çevrilən görkəmli maarif xadimi, pedaqoq, şair Hacı Səlim Səyyah mart qırğını mövzusunda bir neçə şeir və məqalə yazmışdır. Bunlardan ən təsirlisi **"Mart ayı"** sərlövhəli təxmisidir.

Hacı Səlim Səyyah "Mart ayı" şeirində yazırdı:

*Mart ayı... Allah amandır, əlhəzər, min əlhəzər!*
*Mart ayı, çox qəmli aysan, tez qurtar get müxtəsər.*
*Sən kimi mənhus bir aydan deyil, məmnun bəşər.*
*Ərlər məğlub edib, əğyarə sən verdin zəfər.*

*Bu günün misli keçən il, Allahım gözdən iraq,*
*Ermənilər əldə bomba, süngü, xəncərlər, bıçaq,*
*Kəsdilər evlərdə minlərcə gəlin, arvad, uşaq,*
*Südəmərlər nizə nükində çalardı əl-ayaq.*
*Nalə, yalvarmaq bu qövmdə hərgiz etməzdi əsər.* [8]

Sözügedən şeirdə biz "Mart ayı" sözünün simvolik xarakter daşıdığının, ona xitabən millətimiz üçün bəd, düşərsiz olduğunun və onun millətimizin taleyindən tez çıxıb getməyinin arzusunda olduğunu hiss edirik.

Professor Asif Rüstəmli qeyd edir ki, "əsasən gənclər bu mərsiyəni qətliam qurbanlarının yeddisində və qırxında küçələrdə, məhəllələrdə xorla səsləndirərək günahsız həlak olmuş insanlar üçün göz yaşı tökməyə, əslində isə xalqı məkrli, maskalı düşmənə qarşı səfərbərliyə, müqavimətə, mübarizəyə çağırırdılar" [6, s.7].

Ən yaxın qohum və dostları Mart faciəsinin qurbanı olmuş Hacı Səlim Səyyahın **"Mart ayı"** şeirini həyəcansız oxumaq olmur. Şair hüznünü mart ayını günahlandırmaqla azaltmağa səy göstərirdi.

1918-ci il Mart soyqırımına həsr edilmiş şeirlərdən biri də, Cəmo bəy Cəbrayılbəylinin **"Annamə"** adlı mənzuməsidir.

Professor Asif Rüstəmli "Cəmo bəy Cəbrayılbəyli: həyatı və bədii yaradıcılığı" adlı kitabında qeyd edir ki, "Cəmo bəy 1918-ci il Mart soyqırımı dövründə Şamaxıda olmasa da, əzizlərinin, yaxınlarının şahidi olduğu hadisələr haqqında FTK-ya izahat vermiş, qırğınlardan az sonra ziyarət etdiyi doğma şəhərinin ürəkparçalayan mənzərəsini nəzmə çəkmişdir" [7, s.92].

*Nə bənə böylə bir məlal içrə,*
*Atacan durmusan xəyal içrə,*
*Yenə düşmüşmü yadına vətənin?*
*Könlünü dərdləndiriyormu sənin?*

*Yoxdur imdi o gəzdiyin gülşən,*
*Vətənin olmuş iştə beytülhəzən.*
*Boş qoyub köyləri, qaçıb insan,*
*Sanki səhradır ol gözəl Şirvan.* [2, s.9-10]

Sözügedən şeirdə şair baş verən hadisələri, vəhşilikləri təsvir edərək vətənin qəm evinə bənzədiyini, evlərin sahibsiz qaldığını, hər tərəfin göz yaşı töküb ağladığını diqqətə çatdırır.

*Atasız, anasız yetim bir uşaq,*
*Yeddi sinində, əl-ayağı ufaq.*
*Günüz ikən gəzib xərabələri,*
*Ahu əfqanla odlayor cigəri.* [2, s.9-10]

Müəllif şeirdə müharibələrin və soyqırımların daha çox uşaqlara zərbə vurduğunu, onları acı taleyin ümidinə buraxdığını vurğulamağa çalışır.

## Nəticə / *Conclusion*

XX əsrin əvvəllərində azərbaycanlıların soyqırımının poeziyada əksinin təhlil və tədqiqi ilə məşğul olan görkəmli alimlərimizdən Məmməd Cəfər, Abbas Zamanov, Cəfər Xəndan, Əziz Mirəhmədov, Mir Cəlal, Firudin Hüseynov, Kamal Talıbzadə, Yaşar Qarayev,

Şamil Salmanov, Xeyrulla Məmmədov, Məmməd Məmmədov, İsa Həbibbəyli, Kamran Əliyev, Vüqar Əhməd, İslam Qəribli, Alxan Bayramoğlu, Asif Rüstəmli, Şamil Vəliyev (Körpülü), Hüseyn Həşimli, Aybəniz Kəngərli, Lütviyyə Əsgərzadə və digər ədəbiyyatşünasların araşdırmalarında nümunələrə rast gəlmək mümkündür.

Ermənilərin Azərbaycan türklərinə qarşı yeritdikləri soyqırımı siyasətinin ictimai-bədii dərki və ifadəsində humanizm, sülh və əmin-amanlığa, insanlığa çağırış və xalqlararası ülfət və ünsiyyətin bərpasının, onun qorunaraq hər iki tərəfin mənafeyi naminə möhkəmləndirilməsinə çağırış meyil və istiqaməti aparıcıdır.

## Ədəbiyyat / *References*


1. Cabbarlı, Cəfər. Mərsiyə. "İstiqlal" qəzeti. Mart, 1919.
2. Cəbrayılbəyli, Cəmo bəy. Annamə. "Övraqi-nəfisə" jurnalı, Bakı, 1919, №3.
3. Əbdülsəlimzadə, Məhəmməd Hadi. Şühədayi-hürriyyətimizin ərvahinə ithaf. "Azərbaycan" qəzeti, 31 mart 1919, №147.
4. https://az.wikisource.org/wiki/Fəryad_(Əlabbas_Müznib)
5. Mirzə Ələkbər Sabir. Müsəlman və erməni vətəndaşlarımıza. "Həyat" qəzeti, 1 iyul 1905.
6. Rüstəmli, Asif. "Mart soyqırımına həsr edilmiş ilk bədii nümunələr". "525-ci qəzet", 31 mart 2023, №54.
7. Rüstəmli, Asif. Cəmo bəy Cəbrayılbəyli: Həyatı və bədii yaradıcılığı. – Bakı: Elm və təhsil, 2024.
8. Səyyah Hacı Səlim. "Mart ayı" şeiri. "Bəsirət" qəzeti. Mart, 1919.
9. Turan Azər. Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və... Fikrət Sadıq. 02 iyun 2022, https://kulis.az/xeber/yazarlar/mirze-elekber-sabir-eli-bey-huseynzade-42511


## Художественное воплощение геноцида азербайджанцев в начале XX века

**Самира Керимова**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: Akademiya-elm@rambler.ru

**Резюме.** В статье внимание привлечено к исследованиям о воплощении в поэзии геноцида азербайджанцев в начале XX века. На первый план выведена тема формирования национальной литературы и агитации в поэзии темы геноцида, приводятся сведения о писателях и их поэтические образцы на тему геноцидов эпохи, а также даются общие сведения об авторах среди нашей интеллигенции не только того времени, но и последующих, исследовавших эту тему. Кроме этого, в статье обращено внимание на подъём поэзии в начале XX века и создание её представителями литературной школы. За время краткого существования Азербайджанской Демократической Республики в данные годы наряду с идеологической сущностью нашей поэзии главным является усиление активности в общественно-художественном мышлении и оптимистическая вера в будущее. В целом отмечается, что во все периоды нашей литературы тема геноцида является одной из ведущих.
**Ключевые слова:** геноцид, поэзия, художественная литература, трагедия, история